"Maarifpərvərlik"
Azərbaycan Gənclərinin
İctimai Yardım Assosiasiyası
(MAGİYA) ictimai birliyi

"Education"
Public Support Association
of Youth of Azerbaijan
(EPSAYA) public union

Azərbaycan Respublikası, AZ 42 00, Lənkəran şəhəri, Qala Xiyabanı 12,
E-mail: magiya_ngo@yahoo.com, Tel.: (+ 994 25) 255 09 04, Mob.: (+ 994 55) 792 44 42

# NƏQLİ HESABAT – 2010

## Təsisat tarixi

***"Maarifpərvərlik" Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyası (MAGİYA) ictimai birliyi*** 31 mart 2005-ci il tarixində Lənkəran şəhərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşən yerli ziyalı gənclərin təşəbbüsü ilə yaradılmış qeyri-siyasi, könüllü, özünüidarəedən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan qeyri-hökümət təşkilatıdır.

İctimai birlik 31 may 2005-ci il tarixində Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

Birliyin fəaliyyət dairəsi Azərbaycan Respublikasının ərazisini əhatə edir.

## Məqsəd və vəzifələr

İctimai birliyin məqsədi və fəaliyyət predmeti gənclər və gənclər vasitəsi ilə ictimaiyyət arasında sosial, iqtisadi, hüquqi, ekoloji və sair istiqamətlərdə maarifləndirmə və məlumatlandırma işinin aparılmasından ibarətdir.

Birliyin vəzifələri onun məqsədini reallaşdırmaq üçün yeniyetmə və gənclər, o cümlədən geniş ictimaiyyət arasında müvafiq maarifpərvər tədbirlər sistemini (müxtəlif təlimlər və seminarlar, debatlar və klublar, dəyirmi masalar və görüşlər, dərnəklər və kurslar, konfranslar və sərgilər, xeyriyyə marafonları və digər mədəni-kütləvi tədbirlər) həyata keçirməklə cəmiyyətdə elmi-kütləvi biliklərin artmasına köməklik etməkdir.

## Təşkilati struktur

- Ümumi Yığıncaq (Ali İdaeəetmə Orqanı);
- İdarə Heyyəti (İcra Orqanı);
- Prezident;
- Vitse-prezident;
- Nəzarət Təftiş Komissiyası.

**Həmtəsisçilər və üzvlər**

MAGİYA ictimai birliyinin 3 həmtəsisçisi, 8 üzvü və 9 nəfər könüllüsü vardır. İctimai birliyin nümayəndələri həm respublika daxilində, həm də respublikadan kənarda (Gürcüstan, Belçika, Almaniya və s.) müxtəlif əməkdaşlıq layihələrini böyük uğurla həyata keçirir. İctimai birliyin nümayəndələrindən A.Ə.Məlikov Gürcüstan, Ukrayna, Belçika, Avstriya, Böyük Britaniya, Almaniya, Amerika, N.R.Hüseynzadə Gürcüstan, Amerika, S.R.Hüseynzadə Amerika, Gürcüstan, M.R.Teymurov Ukrayna, Amerika, F.F.Abdullayeva Amerikada keçirilən müxtəlif proqramlarda çox fəal iştirak etmiş və ictimai birliyi həmin ölkələrdə layiqincə təmsil etmişlər.

İctimai birliyə üzvlük pulsuz və könüllüdür. Hər bir 18-35 yaşarası ziyalı gənc ictimai birliyə üzv ola bilər. Bundan ötrü ictimai birliyə müvafiq ərizə ilə müraciət etmək lazımdır.

***MAGİYA ictimai birliyinin həmtəsisçiləri və üzvləri***

| *№* | *Adı və soyadı* | *Vəzifəsi* | *Statusu* |
|---|---|---|---|
| 1 | A.Ə.Məlikov | Prezident | Həmtəsisçi |
| 2 | V.İ.Nəsirli | Vitse-prezident | Həmtəsisçi |
| 3 | Z.Z.Babayev | NTK-nın sədri | Həmtəsisçi |
| 4 | N.R.Hüseynzadə | İcraçı direktor | Üzv |
| 5 | T.S.Məmmədzadə | Maliyyə meneceri | Üzv |
| 6 | S.R.Hüseynzadə | PR meneceri | Üzv |
| 7 | E.K.Fəttayev | Hüquqşünas | Üzv |
| 8 | F.F.Abdullayeva | Tərcüməçi | Üzv |
| 9 | M.R.Teymurov | Təlimçi | Üzv |
| 10 | A.A.Axundov | Təlimçi | Üzv |
| 11 | E.E.Abdullazadə | Ekspert | Üzv |

**Qazandığı mükafatlar**

| *№* | *Məzmun* | *Titul* | *Tarix və yer* | *Təşkilat* |
|---|---|---|---|---|
| 1 | "Yerlərdə Dövlət Gənclər Siyasətini uğurla həyata keçirdiyinə görə" | Fəxri Fərman | 02 fevral 2007-ci il, Lənkəran | Lənkəran şəhər Gənclər və İdman İdarəsi |

| | | | | |
|---|---|---|---|---|
| 2 | “Rayonun ictimai-siyasi həyatındakı fəallığına görə” | Fəxri Fərman | 29 dekabr 2010-cu il, Lənkəran | Lənkəran şəhər İcra Hakimiyyəti |

**Üzv olduğu qurumlar**

- “Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası”, 2005-ci il;
- “Uşaq hüquqları üzrə QHT Alyansı”, 2006-cı il;
- “İnsan Alverinə Qarşı QHT Koalisiyası”, 2009-cu il.

**Donorlar və Tərəfdaşlar**

- Avropa İttifaqı;
- Statoil Şirkəti;
- Uşaqların Xilası Təşkilatı (Save the Children);
- Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi.

**Layihə və tədbirlər**

| № | Layihə | Təfsilatı |
|---|---|---|
| 1 | ***Adı*** | “Yeniyetmələr üçün həyat bacarıqları proqramı” (YHBP) |
| | ***Məqsədi*** | Yeniyetmə və gənclərin peşə hazırlığını artırmaq, onların həyat bacarıqlarını inkişaf etdirmək və yaşadıqları müəssisələri tərk etdikdən sonra onlara həyatda müstəqil fəaliyyət göstərmələri üçün yardım göstərmək |
| | ***Məbləği*** | 10 000 Avro |
| | ***Tarixi*** | 10 iyul, 2010-cu il – 10 oktyabr 2011-ci il |
| | ***Yeri*** | Lənkəran rayonu |
| | ***Tərəfdaşlar*** | Gənclər və İdman Nazirliyi (Lənkəran şəhər Gənclər və İdman İdarəsi), Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi |
| | ***Donorlar*** | Avropa İttifaqı, Statoil şirkəti və Uşaqların Xilası təşkilatı |
| **№** | **Tədbir** | **Təfsilatı** |
| 1 | ***Adı*** | “Xocalı soyqrımı gənc rəssamların gözü ilə!” |
| | ***Məqsədi*** | Gənc rəssamların vasitəsilə Beynəlxalq ictimaiyyətin diqqətini Xocalı soyqırımına yönəltmək və Azərbaycanın ədalətli mövqeyinə dəstək nümayiş etdirmək |
| | ***Tarixi*** | 25 fevral 2010-cu il |

| | | |
|---|---|---|
| | ***Yeri*** | N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrı, Lənkəran rayonu |
| | ***Tərəfdaşlar*** | Lənkəran şəhər Gənclər və İdman İdarəsi |
| **№** | **Tədbir** | **Təfsilatı** |
| 2 | ***Adı*** | “Gənc istedadlar sorağında!” |
| | ***Məqsədi*** | Yeniyetmə və gənc rəssamların əl işlərini nümayiş etdirmək və onların əsərlərinin tanıdılmasına dəstək göstərmək |
| | ***Tarixi*** | 20 may 2010-cu il |
| | ***Yeri*** | Əskər Əliyev adına “Dostluq” Parkı, Lənkəran rayonu |
| | ***Tərəfdaşlar*** | Lənkəran şəhər Gənclər və İdman İdarəsi |
| **№** | **Tədbir** | **Təfsilatı** |
| 3 | ***Adı*** | “Sülh – gənclərin gözü ilə!” |
| | ***Məqsədi*** | Dünyada sülh və əminamanlığın əhəmiyyətinin təbliği və müharibələrin bəşəriyyətə vurduğu ziyanların ictimai müzakirə olunması |
| | ***Tarixi*** | 20 sentyabr 2010-cu il |
| | ***Yeri*** | Lənkəran Gənclər Evi, Lənkəran rayonu |
| | ***Tərəfdaşlar*** | Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Cəlilabad Regional Mərkəzi və Lənkəran şəhər Gənclər və İdman İdarəsi |
| **№** | **Tədbir** | **Təfsilatı** |
| 4 | ***Adı*** | “İnsan alverinə qarşı ictimai mübarizə” |
| | ***Məqsədi*** | İnsan alveri və onun qurbanları barədə ictimai müzakirələrin aparılması |
| | ***Tarixi*** | 24 sentyabr 2010-cu il |
| | ***Yeri*** | MAGİYA ictimai birliyinin ofisi, Lənkəran rayonu |
| | ***Tərəfdaşlar*** | “Hüquqi Yardım” ictimai birliyi |
| **№** | **Tədbir** | **Təfsilatı** |
| 5 | ***Adı*** | “Həyat bacarıqlarının artırılması məqsədi ilə ictimai sorğular” (YHBP) |
| | ***Məqsədi*** | Yeniyetmə və gənclər arasında aparılmış sorğuların nəticələri əsasında onlar üçün həyat bacarıqlarının artırılması sahəsində müvafiq təlimlərin müəyyənləşdirilməsi |
| | ***Tarixi*** | 13-14 oktyabr 2010-cu il |
| | ***Yeri*** | “Əqli və Fiziki Cəhətdən Qüsurlu Uşaqlar üçün Xüsusi İnternat Məktəbi”, Lənkəran rayonu |
| | ***Tərəfdaşlar*** | “Əqli və Fiziki Cəhətdən Qüsurlu Uşaqlar üçün Xüsusi İnternat Məktəbi” |
| **№** | **Tədbir** | **Təfsilatı** |

| | | |
|---|---|---|
| 6 | ***Adı*** | "İlk dəfə səsverən gənclərlə görüş!" |
| | ***Məqsədi*** | 18 yaşı yenicə tamam olmuş və ilk dəfə səsvermə hüququ əldə etmiş gənclərə seçkilər zamanı səsvermə hüquqlarından istifadə etmələrinə dəstək vermək |
| | ***Tarixi*** | 03 noyabr 2010-cu il |
| | ***Yeri*** | Lənkəran Gənclər Evi, Lənkəran rayonu |
| | ***Tərəfdaşlar*** | Lənkəran şəhər Gənclər və İdman İdarəsi |
| **№** | **Tədbir** | **Təfsilatı** |
| 7 | ***Adı*** | "Yeniyetmələr üçün Həyat Bacarıqlarının İnkişafı" (YHBP) |
| | ***Məqsədi*** | Şagirdlərə "Ünsiyyət və şəxsi bacarıqların artırılması, CV (Tərcümeyi-hal) haqqında ümumi anlayış və intervü (müsahibə), gender və stereotiplər, toleyrantlıq haqqında məlumat, şəxsi gigiyena və zərərli vərdişlərə qarşı ictimai mübarizə" haqqında geniş məlumat vermək |
| | ***Tarixi*** | 22-25 noyabr 2010-cu il |
| | ***Yeri*** | "Osman Mirzəyev adına Qarışıq Tipli Uşaq Evi", Lənkəran rayonu |
| | ***Tərəfdaşlar*** | "Osman Mirzəyev adına Qarışıq Tipli Uşaq Evi" |
| **№** | **Tədbir** | **Təfsilatı** |
| 8 | ***Adı*** | "Yeniyetmələr üçün Həyat Bacarıqlarının İnkişafı" (YHBP) |
| | ***Məqsədi*** | Şagirdlərə "Ünsiyyət və şəxsi bacarıqların artırılması, CV (Tərcümeyi-hal) haqqında ümumi anlayış və intervü (müsahibə), gender və stereotiplər, toleyrantlıq haqqında məlumat, şəxsi gigiyena və zərərli vərdişlərə qarşı ictimai mübarizə" haqqında geniş məlumat vermək |
| | ***Tarixi*** | 22-25 noyabr 2010-cu il |
| | ***Yeri*** | Lənkəran Peşə Liseyi, Lənkəran rayonu |
| | ***Tərəfdaşlar*** | Lənkəran Peşə Liseyi |
| **№** | **Tədbir** | **Təfsilatı** |
| 9 | ***Adı*** | "Mübadilə görüşü" (YHBP) |
| | ***Məqsədi*** | "Əqli və Fiziki Cəhətdən Qüsurlu Uşaqlar üçün Xüsusi İnternat Məktəbi", "Osman Mirzəyev adına Qarışıq Tipli Uşaq Evi" və "Lənkəran Peşə Liseyi"nin 15 nəfərdən ibarət şagird və təlimatçısının Lənkəran Məşğulluq Mərkəzinə aparılması və mərkəzdə iştirakçılara işə düzəlmə qaydaları və sənədləşmə prosedurları, habelə şirkətlər və onların elan etdiyi vakansiyalar barədə geniş məlumat vermək |
| | ***Tarixi*** | 30 noyabr 2010-cu il |

| | | |
|---|---|---|
| | ***Yeri*** | Lənkəran Məşğulluq Mərkəzi, Lənkəran rayonu |
| | ***Tərəfdaşlar*** | Lənkəran Məşğulluq Mərkəzi |
| **№** | **Tədbir** | **Təfsilatı** |
| 10 | ***Adı*** | "HİV/AİDS-ə qarşı mübarizədə gənclərin fəallığının artırılması!" |
| | ***Məqsədi*** | Gənclərin diqqətini HİV/AİDS probleminə qarşı yönəltmək və ona qarşı mübarizəni gücləndirmək |
| | ***Tarixi*** | 01 dekabr 2010-cu il |
| | ***Yeri*** | Lənkəran Gənclər Evi, Lənkəran rayonu |
| | ***Tərəfdaşlar*** | Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Cəlilabad Regional Mərkəzi və Lənkəran şəhər Gənclər və İdman İdarəsi |
| **№** | **Tədbir** | **Təfsilatı** |
| 11 | ***Adı*** | "Dəyirmi-masa" (YHBP) |
| | ***Məqsədi*** | "Osman Mirzəyev adına Qarışıq Tipli Uşaq Evi", "Lənkəran Peşə Liseyi", "Əqli və Fiziki Cəhətdən Qüsurlu Uşaqlar üçün Xüsusi İnternat Məktəbi" və Lənkəran Məşğulluq Mərkəzinin əməkdaşları üçün 2010-cu il ərzində "Yeniyetmələr üçün Həyat Bacarıqları" proqramının gedişatı ilə əlaqədar təqdimatın keçirilməsi, layihə ilə bağlı ictimai müzakirələrin aparılması və gələcək fəaliyyətin həyata keçirilməsindən ötrü müvafiq təkliflərin hazırlanması |
| | ***Tarixi*** | 18 dekabr 2010-cu il |
| | ***Yeri*** | "Dalğa" oteli, Lənkəran rayonu |
| | ***Tərəfdaşlar*** | QHT və KİV nümayəndələri |

## Nəşrlər

"Yeniyetmələr üçün həyat bacarıqları proqramı" (YHBP) çərçivəsində bukletlər:

### *QHT İdarəetmə bacarıqlarının artırılması*

Uşaqların Xilası (UX) və "Ümidli Gələcək" Gənclər Təşkilatı (ÜGGT) tərəfindən MAGİYA ictimai birliyinin əməkdaşlarının təşkilati bacarıqlarının qiymətləndirilməsi və müvafiq sahələrdə onların bacarıqlarının artırılmasına lazımi dəstəyin verilməsindən ötrü təşkilatın işçi heyyətinə 23 - 24 aprel 2010-cu il tarixində ÜGGT-nın və UXT-nın Texniki Qiymətləndirmə Komandası tərəfindən Təşkilati Qiymətləndirmə Aləti (TQA) və Proqramı Qiymətləndirmə Aləti (PQA), habelə onların tətbiq edilmə metodları haqqında geniş bilik və anlayış verilmişdir.

Qiymətləndirmələrin əsas məqsədi isə təşkilatın inkişaf səviyyəsini müəyyən etmək, proqramın əvvəlində təşkilatın təşkilati bacarığını qiymətləndirmək, təşkilatın güclü və zəif cəhətlərini nəzərə almaq, ehtiyaclarını müəyyənləşdirmək və Yeniyetmələrin üçün Həyat Bacarıqları Proqramının icrası müddətində təşkilata göstəriləcək gələcək texniki yardımın istiqamətini müəyyən etmək olmuşdur.



**"Maarifpərvərlik"**
**Azərbaycan Gənclərinin**
**İctimai Yardım Assosiasiyası**
**(MAGİYA) ictimai birliyi**

**«Просвещение»**
**Ассоциация Социальной Поддержки**
**Азербайджанской Молодежи**
**(ПАСПАМ)**

**"Education"**
**Public Support Association**
**of Youth of Azerbaijan**
**(EPSAYA)**

*Buklet*
*"Save the Children" (Uşaqların Xilası) beynəlxalq təşkilatı, "Ümidli Gələcək" Gənclər Təşkilatı ilə birgə Avropa Birliyi və "StatoilHydro" şirkətinin maliyyə dəstəyi ilə ilə nəşr edilmişdir*


**Əlaqə məlumatları:**

Azərbaycan Respublikası, Lənkəran şəhəri,
Heydər Əliyev prospekti 3

**E-mail:** magiya_ngo@yahoo.com
magiya_ngo@mail.ru

**Telefon:** (+ 994 171) 5 09 04
**Mobil:** (+ 994 55) 792 44 42


**Azərbaycan /Азербайджан/ Azerbaijan**

European Union

Save the Children

Statoil

Ümidli Gələcək Gənclər Təşkilatı

MAGİYA • ПАСПАМ • EPSAYA

"Maarifpərvərlik"
Azərbaycan Gənclərinin İctimai Yardım Assosiasiyası
(MAGİYA) ictimai birliyi

"Просвещение"
Ассоциация Социальной Поддержки Азербайджанской Молодежи
(ПАСПАМ)

"Education"
Public Support Association of Youth of Azerbaijan
(EPSAYA)

## "Yeniyetmələr üçün Həyat Bacarıqları Proqramı"

**Lənkəran - 2010**



*MAGİYA ictimai birliyi 31 mart 2005-ci il tarixində Lənkəran şəhərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşən yerli ziyalı gənclərin təşəbbüsü ilə yaradılmış qeyri-siyasi, könüllü, özünüidarəedən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan qeyri-hökümət təşkilatıdır.*

*İctimai birlik 31 may 2005-ci il tarixində Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır.*

*İctimai birliyin məqsədi və fəaliyyət predmeti gənclər və gənclər vasitəsi ilə ictimaiyyət arasında sosial, iqtisadi, hüquqi, ekoloji və sair istiqamətlərdə maarifləndirmə və məlumatlandırma işinin aparılmasından ibarətdir.*



*Birliyin vəzifələri onun məqsədini reallaşdırmaq üçün yeniyetmə və gənclər, o cümlədən geniş ictimaiyyət arasında müvafiq maarifpərvər tədbirlər sistemini (müxtəlif təlimlər və seminarlar, debatlar və klublar, dəyirmi masalar və görüşlər, dərnəklər və kurslar, konfranslar və sərgilər, xeyriyyə marafonları və digər mədəni-kütləvi tədbirlər) həyata keçirməklə cəmiyyətdə elmi-kütləvi biliklərin artmasına köməklik etməkdir.*



*2010-cu ilin iyul ayından etibarən MAGİYA ictimai birliyi tərəfindən Lənkəranda ""Save the Children" ("Uşaqların Xilası") Beynəlxalq Təşkilatı milli "Ümidli Gələcək" Gənclər Təşkilatı ilə birgə Avropa Birliyi və "Statoil" şirkətinin maliyyə dəstəyi əsasında Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil Nazirlikləri, o cümlədən Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitəsi ilə əməkdaşlıq çərçivəsində* ***"Yeniyetmələr üçün həyat bacarıqları"*** *adlı proqram"ın həyata keçirilməsinə başlanılmışdır.*

*Proqramın məqsədi yeniyetmə və gənclərin peşə hazırlığını artırmaq, onların həyat bacarıqlarını inkişaf etdirmək və yaşadıqları müəssisələri tərk etdikdən sonra onlara həyatda müstəqil fəaliyyət göstərmələri üçün yardım göstərməkdir.*

*Bu məqsədlə MAGİYA ictimai birliyi ilə "Osman Mirzəyev adına Qarışıq Tipli Uşaq Evi", "Lənkəran Peşə Litseyi", "Əqli və Fiziki Cəhətdən Qüsurlu Uşaqlar üçün Xüsusi İnternat Məktəbi" və Lənkəran Məşğulluq Mərkəzi arasında təlim-təhsil və məşğulluq sahəsində yeniyetmə və gənclərin həyat bacarıqlarının artırılması istiqamətində müvafiq anlaşma memorandumları imzalanmışdır.*





*MAGİYA ictimai birliyi tərəfindən artıq 13-14 oktyabr 2010-cu il tarixlərində "Əqli və fiziki cəhətdən qüsurlu uşaqlar üçün xüsusi internat məktəbi"nin yeniyetmə və gəncləri arasında həyat bacarıqlarının artırılması məqsədi ilə müvafiq sorğular, habelə 22-25 noyabr 2010-cu il tarixlərində Lənkəranda yerləşən "Osman Mirzəyev adına Qarışıq Tipli Uşaq Evi"nin və "Lənkəran Peşə Liseyi"nin şagirdləri üçün "Yeniyetmələr üçün Həyat Bacarıqlarının İnkişafı" adlı 4 günlük təlim kursu keçirilmişdir. Təlim kursunda hər bir müəssisədən 20 şagird olmaqla, ümumilikdə 40 nəfər şagirdə müvafiq bilik və informasiyalar verilmişdir. Təlim kursu zamanı iştirakçılara "Ünsiyyət və şəxsi bacarıqların artırılması, CV (Tərcümeyi-hal) haqqında ümumi anlayış və intervü (müsahibə), gender və stereotiplər, toleyrantlıq haqqında məlumat, şəxsi gigiyena və zərərli vərdişlərə qarşı ictimai mübarizə haqqında geniş məlumat verilmişdir. Təlimin keçirilməsi zamanı müxtəlif rol oyunları, interaktiv qrup müzakirələri, qrup işləri və təqdimatlar kimi bir çox təlim metodlarından geniş istifadə olunmuş və sonunda bütün iştirakçılara müvafiq sertifikatlar təqdim edilmişdir. Təlimin nəticəsi olaraq 30 noyabr 2010-cu il tarixində Lənkəran Məşğulluq Mərkəzində "Mübadilə görüşü" keçirilmiş və bu görüşdə "Əqli və fiziki cəhətdən qüsurlu uşaqlar üçün xüsusi internat məktəbi", "Osman Mirzəyev adına Qarışıq Tipli Uşaq Evi" və "Lənkəran Peşə Liseyi"nin hər birindən 4 şagird və bir təlimatçı olmaqla ümumilikdə 15 nəfər iştirak etmişdir. İştirakçılara Lənkəran Məşğulluq Mərkəzi, işə düzəlmə qaydaları və sənədləşmə prosedurları, habelə şirkətlər və onların elan etdiyi vakansiyalar barədə geniş məlumat verilmişdir.*